ISSN: 2706-6185
e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/49/125-128

**Şəbnur Allahverdili**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
https://orcid.org/0009-0007-6509-3462
sebinur9@gmail.com

# Bölgə teatrlarının inkişaf meyilləri: repertuar siyasəti kontekstində

## Xülasə

Bu məqalədə 1991–2024-cü illər ərzində Azərbaycan bölgə teatrlarında müşahidə edilən inkişaf meylləri repertuar siyasəti kontekstində təhlil olunur. Müstəqillik dövrünün ictimai-siyasi və mədəni mühiti nəzərə alınaraq, bölgə teatrlarının repertuar seçimində janr və üslub baxımından hansı istiqamətlərin üstünlük təşkil etdiyi araşdırılır. Məqalədə dövlət teatr siyasətinin bölgələrdəki tətbiqi, sənət ocaqlarının qarşılaşdığı təhcizat, texniki avadanlıq və maliyyə çətinlikləri, yaradıcı heyətin formalaşması və yerli auditoriyanın tələbləri fonunda repertuarın zənginləşməsi məsələləri şərh edilir. Həm klassik, həm də müasir dramaturgiyanın bölgə teatrlarının repertuarında təmsil səviyyəsi, yaradıcılıq axtarışları müqayisəli şəkildə təqdim olunur. Nəticə etibarilə, bölgə teatrlarında repertuar siyasətinin teatrın bədii-estetik inkişafına bilavasitə təsir etdiyi, bu siyasətin isə zaman-zaman mərkəzdən idarə olunan tendensiyalarla yerli təşəbbüslər arasında balans axtarışında olduğu qənaətinə gəlinir.

***Açar sözlər:*** *Azərbaycan teatrı, müasir teatr, bölgə teatrları, Şəki Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, repertuar siyasəti, dramaturgiyada janr prinsipləri, tamaşa, rejissor, üslub, aktyor oyunu*

**Shabnur Allahverdili**
Azerbaijan State University of Culture and Arts
Master student
https://orcid.org/0009-0007-6509-3462
sebinur9@gmail.com

# Development Trends of Regional Theatres: The Context of Repertoire Policy

## Abstract

This article explores the development trends of regional theatres in Azerbaijan between 1991 and 2024, with a specific focus on repertoire policy. Taking into account the socio-political and cultural environment of the post-independence period, the study analyzes which genre and stylistic directions have been prioritized in the selection of plays for regional stages. The paper examines the implementation of national theatre policies in the regions, the structural and financial challenges faced by theatres, the composition of creative teams, and the influence of local audience preferences on repertoire formation. Both classical and contemporary dramaturgy are comparatively evaluated in terms of their representation in regional theatres. The study concludes that repertoire policy has had a direct impact on the artistic and aesthetic development of regional theatre and that this policy often balances between centrally driven tendencies and local creative initiatives.

***Keywords:*** *Azerbaijan theater, modern theater, regional theaters, Shaki State Drama Theater, Lankaran State Drama Theater, Ganja State Drama Theater, repertoire policy, genre principles in dramaturgy, performance, director, style, acting*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Teatr yaradıcılığı zamanla formalaşaraq özünəməxsus sənət dili ilə seçilir və müxtəlif mövzulara fərqli prizmalardan yanaşmaq imkanlarına malikdir. Belə yanaşmada teatrların üslub axtarışları mühüm və həlledici rol oynayır. Bu da onu göstərir ki, səhnə yaradıcılığına yalnız texniki və ya formal yanaşma ilə deyil, repertuar siyasətinin əlvanlığı və zənginləşməsi kontekstində yanaşmaq daha məqsədəuyğun və zəruri metodoloji mövqedir. Məsələn, Azərbaycanda milli teatr ənənəsinə nəzər yetirdikdə, bölgə teatrlarının özünəməxsus yaradıcılıq üslubları formalaşdıqları görünür. Bu isə tamamilə təbii və gözlənilən bir haldır. Çünki hər bir teatr öz yaradıcılıq, forma-məzmun və üslubunu mövcud sənət prinsiplərinə və estetik anlayışlara əsaslanaraq inkişaf etdirir. İnkişafın əsas istiqamətləri isə çox vaxt teatrın repertuar siyasətinin necə formalaşdırılması və yaradıcılıq üslubunun estetik prinsipləri ilə sıx bağlı olur. Başqa sözlə, bir teatrın repertuar siyasətinin hansı istiqamətləri əhatə etdiyini müşahidə etməklə, onun yaradıcılıq mövqeyini və bədii-estetik axtarışlar istiqamətini müəyyənləşdirmək mümkündür.

**Tədqiqat**

**Şəki Dövlət Dram Teatrı**

Şəki Dövlət Dram Teatrının yaradıcılıq imkanları, səmərəli və cəsarətli yaradıcılığı, janr-üslub axtarışları bu mənada yüksək potensialı ilə seçilir. Ümumiyyətlə, Şəki Dövlət Dram Teatrı 1949-cu ildə dayandırılmış fəaliyyətini davam etdirərək 1975–2025-ci illər ərzində müxtəlif səhnə janrlarında tamaşalar hazırlamaqla bədii-estetik, janr-üslub müxtəlifliyinə sadiq qaldığını göstərir.

Şəki teatrının son illərdəki repertuar siyasətinə və səhnəyə qoyduğu tamaşalara nəzər saldıqda, onun yaradıcılıq istiqamətinin janr, üslub, forma və məzmun, mövzu əlvanlığı baxımından geniş axtarış arealını əhatə etdiyi aydın görünür. Bu uğurlu və səmərəli yaradıcılıq ənənəsi 2019-cu ildə hazırlanan tamaşaların uğurlu səhnə təfsirində öz bədii təcəssümünü və təsdiqini tapıb.

Repertuarda Bilal Appayevin "Gözəlləri necə qaçırırlar", Hans Kristian Andersenin "Kralın yeni libası", Elçinin "Teleskop", Hidayət Sayının "Davul səsi", Əli Səmədlinin "Hərənin bir ulduzu", qədim Şərq mədəniyyəti incisi "Kəllə və Dimnə"yə əsaslanan eyniadlı səhnələşdirmə, Səməd Vurğunun "Vaqif", Əhməd Orucoğlunun "Oğru" və eyni zamanda İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" kimi əsərlər yer alır (Burcəliyev, 2019).

Bu müxtəliflik onu göstərir ki, teatr eyni zamanda həm məktəbli tamaşaçısını, həm klassik poeziya və tarixlə maraqlanan izləyiciləri, həm də çağdaş sosial məsələlərə toxunan mövzuları izləməyi sevən auditoriyanı nəzərə alır. Hər əsərin teatr səhnəsində orijinal formada, maraqlı üslubda təqdim olunması isə rejissor yozumu, aktyor ifası və səhnə tərtibatı baxımından fərqli üslubların sintez olunduğunu aydın göstərir.

Xüsusilə uşaq və gənc tamaşaçılar üçün nəzərdə tutulan tamaşalar üslub axtarışları baxımından teatrın repertuarında xüsusi ilə diqqət çəkir. Hans Kristian Andersenin "Kralın yeni libası" əsəri gülməli və tənqidi çalarlarla uşaqlara həm əyləncəli, həm də düşündürücü bir tamaşa nümunəsi təqdim edir. Onu da qeyd etmək lazımdır ki, qədim Şərq ədəbiyyatından götürülmüş "Kəllə və Dimnə" rəvayəti mənəvi-əxlaqi dəyərləri maraqlı süjetlərlə azyaşlı tamaşaçılara aşılamaq baxımından əhəmiyyətlidir.

Bundan əlavə, Altay Məmmədovun "Kitabi Dədə Qorqud" dastanının motivləri əsasında yazdığı "Dəli Domrul" adlı tamaşa da teatrın yeniyetmələr və gənclər üçün nəzərdə tutduğu səhnə nümunələrindən biridir (Şəki Teatrı "Yaşasın Teatr Deyəcək", 2019).

Milli irsə əsaslanan bu əsər qəhrəmanlıq, mənəviyyat və fədakarlıq mövzularını poetik və dramatik formada təqdim etməklə gənc nəslin estetik tərbiyəsində xüsusi rol oynayır. Eyni zamanda, teatr müasir səhnəni klassik irslə zənginləşdirmək istiqamətində də ardıcıl fəaliyyət göstərir. Cəfər Cabbarlının anadan olmasının 120 illiyi münasibətilə tamaşaya hazırlanan "Sevil" tamaşası bu baxımdan xüsusi qeyd olunmalıdır. Tamaşa həm qadın azadlığı mövzusunun aktuallığı, həm də milli dramaturgiyanın əsas sütunlarından birinə ehtiram əlaməti kimi teatrın ideya-estetik xəttində mühüm yer tutur.

**Lənkəran Dövlət Dram Teatrı.**

Müstəqillik illərindəki səmərəli axtarışları ilə Lənkəran teatrı regionlardakı sənət ocaqları arasında fərqlənən orijinal yaradıcılıq xətti və ardıcıl inkişaf dinamikası ilə seçilib. Teatr çağdaş dramaturgiya ənənələri sayəsində repertuar zənginliyi ilə, həm də peşəkar axtarışların intensivləşməsi ilə xarakterizə olunub.

2011-ci ildə teatrın truppasının Türkiyənin Dənizli şəhərində keçirilən beynəlxalq teatr festivalında iştirakı bu baxımdan ciddi uğur kimi əhəmiyyət daşıyır. Festivalda nümayiş etdirilən Qriqori Qorinin "Herostratı unudun!" psixoloji dramının tamaşası həm seçilmiş əsərin fəlsəfi-ictimai məzmunu, həm də onun diqqətçəkən səhnə yozumu ilə teatrın dərin düşüncəyə söykənən üslub axtarışlarını üzə çıxarır. Əsərin Türkiyə, Rusiya, Bolqarıstan və Makedoniya teatrları ilə eyni səviyyədə təqdim edilməsi Lənkəran teatrının beynəlxalq səviyyədə özünün üslub-forma orijinallığına güclü səy göstərdiyinə əyani sübutdur. Xalq artisti Qabil Quliyevin, Əməkdar artist Adil Zeynalovun, bacarıqlı aktyorlar Niftulla Əsgərovun, Qızılgül Quliyevanın, Aynur Əhmədovanın iştirakı ilə baş tutan bu tamaşa həm tamaşaçılar, həm də münsiflər heyəti tərəfindən rəğbətlə qarşılandı və televiziya efirində nümayiş etdirilməsi ilə geniş auditoriyaya çatdırıldı (Şağlaserli, 2011).

Teatrın forma-üslub və bədii-estetik, mövzu-janr axtarışları bununla məhdudlaşmır. 2025-ci ildə keçirilən Milli Teatr Günü münasibətilə baş tutan təntənəli mərasim və "Bölgə teatrlarının Bakı premyerası" layihəsinin bağlanışı çərçivəsində nümayiş olunan tamaşalar teatrın müasir dramaturgiya ilə əlaqəsini və yeni yaradıcı yanaşmalarını bir daha nümayiş etdirdi. Cavid Zeynallının "Tanrı quşu gəlmədi" əsəri əsasında hazırlanmış tamaşada Qabil Quliyevin canlandırdığı Süleyman obrazı "Ən yaxşı aktyor" mükafatına layiq görüldü. Qızılgül Quliyeva falçı Əlamət roluna görə "Ən yaxşı aktrisa", Aynur Əhmədova isə Kamal Abdullanın "Casus" əsərində Burla xatun obrazına verdiyi bədii şərhə görə "Uğurlu təqdimat" nominasiyası üzrə mükafat aldı (Lənkəran Dövlət Dram Teatrı, n.d.).

Bu faktlar aktyor ifaçılığı sahəsində teatrın yetkin sənətkar potensialına malik olduğunu təsdiqləyir.

Repertuar siyasətində həm klassik, həm də çağdaş dramaturgiyaya yer verən teatr, məzmun baxımından ictimai-fəlsəfi məsələlərə və mənəvi dəyərlərə üstünlük verir. Məhz bu axtarışların nəticəsi olaraq həmin ildə yazıçı-dramaturq Qafar Cəfərlinin "Tanrı əmanəti" əsəri də səhnələşdirilərək tamaşaçılara təqdim edildi. Bu tamaşa ideya və bədii dərinliyi ilə, eləcə də səhnə quruluşu baxımından teatrın müasir tələblərə cavab verən yeni estetik dil formalaşdırdığını göstərdi (Lənkəran Dövlət Dram Teatrı, n.d.).

Repertuarın başqa bir diqqətçəkən elementi isə Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasının yer almasıdır. Bu seçim teatrın milli klassikaya da önəm verdiyini və ənənəvi tamaşaçı auditoriyasına da müraciət etdiyini sübut edir (AZƏRTAC, n.d.).

**Gəncə Dövlət Milli Dram Teatrı.**

Müstəqillik illəri ərzində, yuxarıda haqqında bəhs etdiyimiz yaradıcılıq məsələlərini Gəncə Dövlət Dram Teatrının repertuar siyasətində də görmək mümkündür. Teatrın iştirak etdiyi festivallar və seçdiyi dramaturji materiallar bu istiqamətdəki cəhdlərin əsas göstəricisidir.

2009-cu ildə teatr özünün 114-cü mövsümünü Elçinin "Qatil" əsəri ilə açdı. Daha sonra həmin mövsümdə müəllifin "Ölüm hökmü" pyesi də tamaşaya qoyuldu. Hər iki səhnə işi insani, etik və sosial məsələləri gündəmə gətirməklə teatrın psixoloji dərinlik və ictimai problematikaya yönəldiyini göstərdi.

Eyni mövsümdə Əli Əmirlinin "Varlı qadın" və "Kişi və qadın" komediyalarının da nümayişi teatrın daha yüngül forma və üslubda sosial münasibətləri təqdim etməyə çalışdığını ortaya qoydu. Hüseynbala Mirələmovun "Həyat eşqi" əsəri isə fərdin daxili mübarizəsi və yaşama motivasiyası kimi mövzulara yönəlmişdir.

Gəncə teatrı öz tarixində ilk dəfə "Azərbaycan teatrı 2009–2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində Türkiyənin Giresun Beynəlxalq Teatr Festivalında iştirak etdi. Gümrah Ömərin quruluş verdiyi "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşası 2012-ci ilin mayında yenidən Türkiyədə, sentyabrda isə Ufa şəhərindəki "Tuğanlık" Türkdilli dövlətlər teatr festivalında nümayiş olunub (AZYB, n.d.).

2024-cü ildə Gəncə teatrı həmçinin Türkiyə dramaturgiyasına da müraciət edib. Türk yazıçısı Əziz Nesinin "Toros canavarı" əsərinin uğurlu tamaşası buna sübutdur. Əsərdəki ictimai tənqid elementləri, yumor və sadə, anlaşılan struktur teatrın müxtəlif tamaşaçı qruplarına yönəlmə niyyətini göstərir.

Teatrın fəaliyyətində beynəlxalq əlaqələrin qurulması da diqqət çəkir. 2024-cü ilin iyul ayında Portuqaliyanın Braga şəhərində keçirilən "MİT III" Beynəlxalq Teatr Festivalında Gəncə Dövlət Milli Dram Teatrı Ejen İoneskonun "Kral ölür" tamaşası ilə iştirak edib. Tural Vaqifoğlunun quruluş verdiyi bu tamaşa "Ən yaxşı geyim tərtibatı" və "Qran-pri" mükafatlarına layiq görülüb (Teatro.az, n.d.).

Absurd janrda yazılmış əsərin seçilməsi teatrın eksperimental və qeyri-ənənəvi yanaşmalara da açıq olduğunu göstərir.

## Nəticə

Şəki, Lənkəran və Gəncə teatrları Azərbaycanın bölgə teatrları arasında özünəməxsus xüsusiyyətləri ilə seçilən mədəniyyət ocaqlarıdır. Hər bir teatrın repertuar siyasəti və yaradıcılıq yanaşması fərqli estetik prioritetlərə əsaslansa da, ümumi məqsəd milli teatr sənətini zənginləşdirmək və tamaşaçı kütləsini daha da genişləndirməkdir.

Şəki teatrı uzunmüddətli təcrübəsi və geniş janr diapazonu ilə klassika ilə müasirliyi birləşdirərək, regional səhnədə rəngarəng və möhkəm mövqe tutub. Onun repertuarındakı müxtəliflik teatrın həm uşaq, həm gənc, həm də yetkin tamaşaçılar üçün maraqlı səhnə əsərləri təqdim etməsini təmin edir. Lənkəran Dövlət Dram Teatrı isə milli ənənələrə bağlı qalmaqla yanaşı, beynəlxalq teatr mühitinə inteqrasiya meyllərini gücləndirərək, müasir dramaturgiya ilə sıx əlaqədə fəaliyyət göstərir. Onun peşəkar səviyyəsi və yaradıcı axtarışları teatrın həm yerli, həm də beynəlxalq arenada tanınmasını təmin edib. Gəncə teatrı isə xüsusilə müasir və eksperimental dramaturgiyanın müxtəlif növlərini repertuarına daxil etməklə, daha çevik və dinamik teatr modeli kimi çıxış edir. Onun beynəlxalq festivallarda qazandığı uğurlar və müxtəlif janrları sınaqdan keçirməsi teatrın yeniliklərə açıq olmasını göstərir. Dinamiklik baxımından Gəncə teatrı çağdaş teatr tələblərinə daha tez uyğunlaşa bilən teatr modeli kimi seçilsə də, Şəki və Lənkəran teatrlarının ənənəvi zənginlikləri və uzunmüddətli təcrübələri onların regional səhnədə davamlı mövqe tutmasını təmin edir.

## Ədəbiyyat

1. Burcəliyev, A. (2019, sentyabr 5). "Xəstəlik xəstəsi və ya yaşasın teatr" tragifarsı Şəki Teatrının səhnəsində. *Ədalət.*
2. Şəki Teatrı "Yaşasın Teatr Deyəcək". (2019, sentyabr 12). *Kaspi.*
3. AZƏRTAC. (n.d.). *"Arşın mal alan" Lənkəran Dövlət Dram Teatrının səhnəsində.* https://azertag.az/xeber/_quotarsin_mal_alan_quot_lenkeran_dovlet_dram_teatrinin_sehnesinde-3531839
4. Lənkəran Dövlət Dram Teatrı. (n.d.). *"Bölgə teatrlarının Bakı premyerası" layihəsinin bağlanış mərasimi keçirilib.* https://www.lenkeranteatr.az/xeber-mukafatlara-layiq-goruldu
5. AZYB. (n.d.). *Gəncə Teatrı dünən, bu gün və həmişə...* http://www.azyb.az/index.php/culture/post/18
6. Lənkəran Dövlət Dram Teatrı. (n.d.). *"Tanrı əmanəti" tamaşasının premyerası keçirilib.* https://www.lenkeranteatr.az/xeber--tanri-emaneti-tamasasinin-premyerasi-kecirilib
7. Teatro.az. (n.d.). *Gəncə Teatrının tamaşası Portuqaliyada "Qran-pri"yə layiq görülüb.* https://teatro.az/az/post/gence-teatrinin-tamasasi-portuqaliyada-qran-priye-layiq-gorulub-1245
8. Şağlaserli, A. (2011, may 25). Lənkəran teatrı Türkiyədə festivalda iştirak edib. *Mədəniyyət qəzeti.*

Daxil oldu: 20.03.2025
Qəbul edildi: 23.06.2025